F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Televiziya və Radioda Uşaqların Gücü

11 dekabr Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibəti ilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

**Bakı - 2025**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Televiziya və Radioda Uşaqların Gücü** - 11 dekabr Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; red. R.Məmmədli - Bakı: 2025.- 15s.

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;

E-mail: info@clb.az.
İnternet ünvanı: www.clb.az

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025**

# Uşaqların Efir Macərası

"İnsanın uşaqlıq dövrü ən xoşbəxt dövrüdür. Uşaqlar bunu bəlkə də bilməzlər. Ancaq uşaqlıq dövrünü yaşamış, həyatın ağır və çətin illərini, eləcə də çox xoşbəxt günlərini yaşamış insanlar bunu yaxşı bilirlər. Mən də belə insanlardan biriyəm. Uşaqlığın nə olduğunu yaxşı bilirəm, gəncliyin nə olduğunu və yaşlı həyatın nə olduğunu da bilirəm. Ona görə də mən sizə həqiqəti deyirəm. Həqiqət ondan ibarətdir ki, uşaqlıq dövrü insanın ən xoşbəxt dövrüdür. Mən arzu edirəm ki,müstəqilAzərbaycanınuşaqları həyatlarının bu xoşbəxt dövrünü tam firavan keçirsinlər. Biz də - Azərbaycan dövləti, hökuməti, Azərbaycan Prezidenti kimi mən də bütün xalqımızın xoşbəxtliyi uğrunda çalışaraq birinci növbədə uşaqların xoşbəxt həyatını təmin etməyi özümüzə müqəddəs vəzifə kimi qəbul etmişik. Biz bu yolda çalışırıq. Şəxsən mən hesab edirəm ki, uşaqlara qayğı göstərmək, uşaqların təhsili, tərbiyəsi üçün şərait yaratmaq uşaqlara həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət-ənənələrini aşılamaq uşaqlarla aparılan işin əsas hissəsi olmalıdır".

***Ümummilli lider Heydər Əliyev***

Bu sözləri Ümummilli lider Heydər Əliyev 1998-ci ildə təşkil edilmiş uşaqlarla görüşündə demişdir. 2009-cu ildən başlayaraq BMT tərəfindən hər il martın 3-də qeyd edilən Uşaqların Beynəlxalq Televiziya və Radio Günü BMT Uşaq Fondunun (UNICEF) təşəbbüsü ilə 1994-cü ilin aprelində Kann şəhərində təsis olunub. Bu gün əvvəlcə dekabrda qeyd olunsa da, 2009-cu ildən onun qeyd olunması martın ilk bazar gününə keçirilir. Baxmayaraq ki, 2011-ci ildə bu günün təşəbbüsçüsü UNICEF bu günü qeyd etmək təşəbbüsündən əl çəksə də, yenidən gəncləri televiziya proqramlarının yaradıcıları kimi cəlb etmək və gənclərin iştirakı ilə yeni layihələr yaratmaq planlarını bölüşməyə, bu günü yenidən qeyd edilməsinə yenədə çağırışlar edirdi. Uşaqların beynəlxalq televiziya və radio verilişləri günü kimi təsis edilən bu günün ənənəsinə görə, televiziyalar heç olmasa ildə bir gün öz verilişlərini uşaqlara həsr etməlidirlər, mavi ekranı onların ixtiyarına verməlidirlər. Beynəlxalq televiziya və radio verilişləri günü ona görə təsis edilib ki, televiziyalar tamaşaçıların bir hissəsi olan uşaqlar üçün bu gün xüsusi diqqət ayırsınlar. Uşaqlar üçün mütəmadi olaraq maraqlı verilişlər hazırlansınlar. Bu verlişlər hazırlanarkən televiziyaların proqram siyasətində uşaqların maraq və istəkləri nəzərə alınsın.Televiziya uşaqları gələcəyə normal insan, cəmiyyətə isə layiqli bir vətəndaş kimi hazırlaya biləcək bir vasitədir. Ona görə televizyalarda və radiolarda maraqlı uşaq verilişləri çox olmalıdır. Çünki uşaqlar bizim gələcəyimizdir.Təbii ki, uşaqların diqqətini çəkən, onların maraq dairəsinə daxil olan vərdişlərdən biri də televiziyadır.

Hər bir kanalın uşaqlar üçün ayrıca redaksiyası var və mütləq də olmalıdır. Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin ənənələrə söykənərək uşaqlar üçün proqramlar hazırlanması diqqət çəkir. İstər

AzTV-də, istərsə də onun "Mədəniyyət" kanalında uşaq və gənclərə həsr olunan verilişlərin təkcə adlarına fikir verək: "Təmas nöqtəsi", "Tələbə dünyası", "Mən də uşaq olmuşam", "Çoxbilmişlərdənsinizmi?", "Mən azərbaycanlıyam", "Müasir Azərbaycan gəncliyi", "Biləyən", "Bəbək", "Ana dili" və s. əlbəttə, bu verilişlərin hər biri haqqında ayrıca danışmaq da olar. Təqdir edəsi cəhət budur ki, hər bir verilişdə tamaşaçının yaşı nəzərə alınır. Çalışılır ki, onların dünyagörüşünə, təfəkkürünü uyğun mövzular seçilsin. Uşaq baxdığı hər bir şeydən mənəvi qida alsın. Öz yaşıdlarının uğurlarından, qabiliyyətlərindən xəbər tutsun. Nəticədə öz potensialına, marağına uyğun məşğuliyyət tapsın. Kimi müntəzəm kitab oxumağı, kimi rəsm çəkməyi, kimi musiqi alətlərində ifa etmələri ilə fərqlənsin. Uşaqlar arasında aparılan yarışma və müsabiqələr də məhz bu mənada maraqlı qurulur. Xüsusilə də verilən sualların cavabları hər bir uşağın təfəkkürünü, dünyagörüşünü, həyata baxışını əks etdirir. Bundan əlavə, hələ 1994-cü ildə UNICEF, Beynəlxalq Televiziya İncəsənəti və Elmləri Akademiyasının təsis etdiyi xüsusi mükafatda vardır ki, bu mükafat həmin gün proqramı ilə öz missiyasını ən tam şəkildə təcəssüm etdirən televiziya şirkətinə təqdim olunur.

**Kitabxanada keçirilməsi nəzərdə tutulan tədbirlər:**

Uşaqların Beynəlxalq Televiziya və Radio Günü uşaqlar üçün çox maraqlı və əyləncəli bir gündür! Bu günün məqsədi televiziya sənətini uşaqlara təbliğ etmək və televiziyanı bir gün uşaqlara verməkdir. Onlarin özlərini sərbəst hiss etdikləri, özlərinə bayram hesab etdikləri təqvimdə xüsusi günlər qeyd edilir ki, bu günlər onların bayramlarıdır. Təkcə 1 iyun uşaqların Beynəlxalq Müdafiəsi günü yox, təqvimdə uşaqların maraqlarını müdafiə edən bir neçə əlamətdar günlər yer alır ki, bunlardan "Uşaq İxtirası Günü - 17 yanvar", "Beynəlxalq Kitab Bağışlama Günü - 14 fevral", Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü – 3 mart, "Beynəlxalq Kuklaçı Günü - 21 mart", "Beynəlxalq Uşaq Kitabı Günü - 2 aprel", "Ümumdünya İnternet Günü – 4 aprel", "Ümumdünya Kitab və Müəllif Hüquqları Günü – 23 aprel", "Beynəlxalq Cizgi Filmləri Günü – 6 aprel", "Beynəlxalq Şokolad Günü və s. qeyd etmək olar.

Bir çox dünya ölkələrində olduğu kimi Uşaqların Beynəlxalq Televiziya və radiosu Günü hər il ölkəmizdə təntənəli şəkildə qeyd olunur. Bu gün Azərbaycanda uşaqların problemlərinin həlli istiqamətində müxtəlif layihələr, dövlət proqramları həyata keçirilir. 2009-cu ildən başlayaraq hər il martın 3-ü və dekabrın 11-i qeyd edilən Uşaqların Beynəlxalq Televiziya və Radio gününün məqsədi bu gündə uşaqların həyatını zənginləşdirmək, mədəniyyətlərarası dialoqu təşviq etmək və onlar üçün uşaq hüquqları haqqında məlumatlılığın təbliğini artırmaqdır.

Uşaqlarla işləyən mədəniyyət müəssisəsi olaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasında Uşaqların Beynəlxalq Televiziya və Radio günü ilə bağlı hər il maraqlı tədbirlər hazırlanır. Bu tədbirlərin məqsədi uşaqlar üçün yüksək

keyfiyyətli və məlumatlandırıcı layihələri təqdim etmək, bu gündə onların televiziya və radio verilişlərinin yaranması gününün mahiyyəti haqqında məlumat verməkdir.



Uşaqların qayğısına qalmaq, onların düzgün formalaşmasına kömək etmək hər birimizin borcudur. Çünki gələcəyimiz olan uşaqların formalaşmasında mənəvi tərbiyənin böyük əhəmiyyəti vardır. Məhz televiziyalar da onların yaşlarına uyğun hazırlamağa borcludurlar! Bu gündə kitabxanada keçiriləcək tədbirlər sırasında uşaqlarla birlikdə televiziya işçilərinin hazırladığı uşaq verlişlərindən danışmaq onlar üçün maraqlı olar. Bunun üçün uyğun məkan kitabxananın nağıl otağını seçə bilərik.

**Kitab sərgisi:**

Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsullarından biridir. Sərginin hazırlanmasında onun tərtibi məsələlərinin əhəmiyyətli olduğunu nəzərə alıb, seçilən mətn və təsvir materiallarının bir-birini tamamlamasına fikir verməliyik. Təşkil olunan sərgilərə "Uşaqların Səsi Efirə Gedir", "Ekranın Arxasında: Uşaqların Gözü ilə Dünya", "Kiçik Mikrofon, Böyük Söz", "Efirin Balaca Ulduzları", "Radio və TV-də Uşaqların Gücü", "Gələcəyin Jurnalistləri", "Sədəfli Səslər, Rəngli Ekranlar","Kamera Uşaqlara Baxır","Mikrofona Doğru Addımlar", "Səsimin Sədası: Uşaqlar Danışır","Media Dünyasını Kəşf Edək!", "Uşaqlar Şəkil Çəkir, Uşaqlar Danışır", "Kiçik Reportyorlar Günü","Uşaqların Efir Macərası", "Gələcək Media Ustaları" başlıqları vermək olar.

**Uşaqlar haqqında deyilənlər:**

Uşaq da meyvə tək yetişən olar.
Əsəbi bərkiyər, ət-qanə dolar.
O uşaq kamala can ata-ata,
Ağlına ağıllı söz bata-bata.
Təlim məktəbinə çapar atını,
Arzu şərbətinin duyar dadını

**Nizami Gəncəvi**

Uşaq üçün hər bir oyun ciddi xarakter daşıyır, çünki o, oynayarkən yaşayır. O yalnız oynayarkən öyrənir, ruhən cismən böyüyür.

**A.V. Lunaçarski**

Uşaqlar bizim sabahkı hakimlərimizdir, bizim dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir.

**Maksim Qorki**

Uşaqların özlərinin görmək, düşünmək, və hiss etmək qabiliyyəti var. Bunu öz duyğularımızla əvəz etməyə çalışmaqdan ağılsız şey ola bilməz.

## Kitab icmalı:




**Seyidov Rüstəm. Elm və Texnika. İnkişaf tarixi . - Bakı : Ayna Mətbu Evi, 2001. - 80 s.**

Mövzu icmalları kitabxanada keçirilən maraqlı tədbirlərdən biri olduğunu nəzərə alıb oxucular üçün təşkil edilməsi məqsədəuyğundur. Mövzu icmallarında oxuculara əsasən hər hansı mövzuya həsr edilmiş ədəbiyyat barədə danışırıq.11 dekabr Uşaqların Beynəlxalq Televiziya və Radio günü ərəfəsində oxucularla informasiya mənbəyi olan televiziyanın ixtirası, onun yaranma tarixindən məlumatlar yer alan kitabları seçib icmalını keçirmək məqsədəuyğun olar. Kitabları seçərkən son illərdə nəşr olunmuş müxtəlif tipli kitabları nəzərə almalıyıq. İcmalın əvvəlində mövzunun adını və məqsədini qeyd edirik. İcmala daxil etdiyimiz hər kitaba geniş xarakteristikasını veririk.

“Ayna Uşaq Ensklopediyası” silsiləsindən olan Elm və Texnika inkişaf tarixi adlı kitabda yer alan televiziya haqqında informasiyalar bu baxımdan uşaqlar üçün maraqlıdır.
**https://drive.google.com/file/d/1zar0PKtnlMjl_LYJ1gxURW0q1kkrrII9/view**

## Uşaqlarla söhbət:

İcmaldan əlavə kitabxanada uşaqlarla 11 dekabr Uşaqların Beynəlxalq Televiziya və Radio Gününün tarixi haqqında söhbət təşkil edə bilərik. Onlara bu günün ilk dəfə ölkəmizdə necə qeyd edilməsindən söhbət açırıq. Təbii ki, uşaqların diqqətini çəkən, onların maraq dairəsinə daxil olan vərdişlərdən biri də televiziyadır. Hər bir kanalın uşaqlar üçün ayrıca redaksiyası olur. Bu redaksiyalarda uşaqlar üçün verilişlər hazırlanır. Bu verilişlərdə çalışılır ki, fidanlara onların dünyagörüşünə, təfəkkürünə uyğun mövzular seçilsin və uşaqlar baxdığı hər bir mövzudan mənəvi qida alsın. Öz yaşıdlarının uğurlarından, qabiliyyətlərindən xəbər tutsun. Nəticədə öz potensialına, marağına uyğun məşğuliyyət tapsın. Gələcəkdə kimi müntəzəm kitab oxumağı ilə, kimi rəsm çəkməyi, kimi musiqi alətlərində ifa etmələri ilə fərqlənsin. Uşaqlar arasında aparılan yarışma və müsabiqələr də məhz bu mənada maraqlı hazırlanmalıdır ki, verilən sualların cavabları hər bir uşağın təfəkkürünü, dünyagörüşünü, həyata baxışına düzgün təsir etsin.

Uşaqların Beynəlxalq Televiziya və Radio Günü çox işıqlı və xeyirxah bayramlardan biridir. Ona görə ki, həmin bayram hamımızı kiçik, amma sevimli balalarımızı unutmamağa, yaşlılara isə nə vaxtsa uşaq olduqlarını xatırlatmağa səsləyir. Bu bayram gününü BMT-nin Uşaq Fondu (YUNİSEF) 1994-cü ilin aprelində Kann şəhərində elan edib. O zamandan hər il dekabrın ikinci bazar günü

dünyanın bütün aparıcı teleradio şirkətləri efiri uşaqların və uşaq verilişlərinin ixtiyarına verir. Onların çoxu bu bayramda istedadlarını üzə çıxarmaq və yaşlılara öz suallarını vermək bacarığını üzə çıxarır. 1994-cü ildən dünyanın 170 ölkəsinin 200-dən çox televiziya və radiosunun qoşulduğu uşaq dalğasına “Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri” şirkəti də qoşulmuşdur. Bu, ümummilli lider Heydər Əliyevin Azərbaycanın həmin bayrama qoşulmasına dair sənədi imzalamasından sonra mümkün olmuşdu. Burada əsas prinsip o olmuşdur ki, həmin gün kamera və rejissor pultu arxasında uşaqlar oturur, uşaqlar süjet çəkir və aparıcılıq edirlər. Verilişlərdə həm uşaqların problemləri qabardılır, həm də konsert proqramı nümayiş etdirilir. Bu proqram yalnız dövlət kanalları üçün nəzərdə tutulub. Vaxtilə Heydər Əliyevin imzaladığı sənəddə bu verilişin məhz AzTV vasitəsilə yayımlanacağı göstərilib. İlk verilişin adı isə bilirsiz nə olub? “Uşaqlar dünyanın sevincidir”. Verilişin adı üç dildə - Azərbaycan, ingilis və rus dillərində səsləndirilib. Ümumiyyətlə, verilişin adı bütün dünya televiziya və radioları üçün eyni olub. Hər il adlar dəyişirdi. Sonrakı illərdə veriliş efirə *“Uşaqlar tələb edir”, “Uşaqlar arzulayır”, “Uşaqlar təkid edir”* adları ilə getmişdir. İlk dəfə verilişi tanınmış diktor Roza xanım Tağıyeva açmışdı, Bəxtiyar və Sevinc Məmmədovları aparıcılığa dəvət etmişdir. Onlar YUNİSEF-in verilişində böyüdülər, inkişaf etdilər. Digər ölkələrdə bu proqram çox yığcam şəkildə keçirilir. Televiziyalar ona yarım saat vaxt ayırırlar. Bizdə isə veriliş 6 saat canlı efirdə nümayiş olunurdu. Bu, çox böyük üstünlük idi və uşaqların müdafiəsinə, yaradıcı düşüncəsinə daha çox diqqətin ayrılması demək idi.

Ümummilli lider Heydər Əliyevin YUNİSEF-in Bakıdakı təmsilçisi ilə ilk verilişə gəlməsi uşaqlar üçün əsl bayrama çevrilmişdi. Ölkə rəhbəri təxminən iki saata yaxın verilişdə iştirak etmişdi. Televiziyada gedən həmin veriliş Azərbaycan radiosu ilə də yayımlanırdı. AzTV uşaqlara öz fikirlərini çatdırmaq, qaçqın və məcburi köçkün həyatı, küçə həyatı keçirən uşaqların, uşaq evlərində yaşayan balacaların problemlərini qabartmaq üçün sərbəstlik verirdi və onlar öz hüquqlarının bərpasını cəmiyyətdən tələb edirdilər. Uşaq hüquqlarının qarantı olan YUNİSEF - də AzTV-yə kasetlər verirdi, uşaqların qurumları yaradılır, istedadları göstərilirdi. Balacalar problemlərinin həlli üçün səhiyyə, təhsil, gənclər, mədəniyyət nazirliklərinə müraciət edirdilər. Verilişin informasiya mərkəzi həmin süjetlərə qoşulurdu. Nazirlərlə görüşlər yayımlanırdı. Uşaqlar dövlət müəssisələrinin rəhbərlərinə onları maraqlandıran sualları verirdilər. Bu, AzTV-nin reytinqini qaldıran veriliş idi. Çünki ulu öndər hər il Beynəlxalq Uşaq Televiziya və Radio Günündə uşaqları təbrik etməyə gəlirdi.

Bu verilişin ərsəyə gəlməsi üçün AzTV-nin təkcə uşaq redaksiyasının 20-25 nəfər yaradıcı əməkdaşı işə cəlb olunurdu. 2003-cü ildə veriliş "Biz qəhrəman olmaq istəyirik" devizi ilə yayımlanmalıydı. Lakin 2003-cü il dekabrın 12-də Heydər Əliyev dünyasını dəyişdi, öz böyüklüyü ilə balacaların da qəlbində unudulmaz xatirəyə çevrildi...

Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan olunub.

Ümummilli liderin əsasını qoyduğu dəyərli ənənələrn hazırda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən davam etdirilir . AzTV-də uşaqların veriliş aparması ənənəsi çoxdan mövcud olub. Görkəmli aktyorlarımız Yaşar Nuri, Ramiz Əzizbəyli AzTV-də verilişlər aparırdılar. R. Əzizbəyli və Y.Nuri əyləncəli, Q.Bağırov intellektual verilişlər aparırdılar. "Gənc liderlər" təşkilatı uşaqlar arasında sorğu da aparıb. Sorğunun nəticəsindən bəlli olub ki, uşaqlar Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanı ən yaxın dostları hesab edirlər. Uşaqlar azad söz imkanı məkanı kimi televiziya məkanını görüblər. Müxtəlif müsiqili, əyləncə, maarifləndirici proqram, yeniyetmələrin dünyagörüşlərinin artmasına çox müsbət təsir göstərir. İstedadları üzə çıxaracaq uşaq-informasiya proqramı, yarış proqramı, layihə şəklində təqdim edilən verilişlər buna misal ola bilər. Göründüyü kimi, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin yaradıcı kollektivi azyaşlı tamaşaçı və dinləyicilərinin yüksək ideallar ruhunda tərbiyəsində mühüm rol oynayır, balacaların mənəvi dünyasını yeni rəngarəng çalarlarla zənginləşdirmək sahəsində səylərini əsirgəmir.

**Viktorina Sualları (15 sual)**

1. **Uşaqların Beynəlxalq Radio və Televiziya Günü hansı məqsədlə qeyd olunur?**
   A) Uşaqlara öz fikirlərini ifadə etmək imkanı vermək
   B) Yeni oyunlar tanıtmaq
   C) Televiziya izləyicilərini artırmaq
2. **Bu gün əsasən hansı media vasitələrinə aid edilir?**
   A) Kino və teatr
   B) Radio və televiziya
   C) Sosial media
3. **Bu günün əsas mövzusu kimlərdir?**
   A) İdmançılar
   B) Uşaqlar
   C) Müəllimlər
4. **Bu gün ümumiyyətlə harada qeyd olunur?**
   A) Yalnız Avropada
   B) Yalnız Asiyada
   C) Dünyanın müxtəlif ölkələrində
5. **Uşaqların Beynəlxalq Radio və Televiziya günündə uşaqlar adətən media orqanlarında hansı rolu yerinə yetirirlər?**
   A) Aparıcı və reportyor
   B) Tamaşaçı
   C) Reklam mütəxəssisi
6. **Bu günün əsas ideyalarından biri hansıdır?**
   A) Uşaqları reklam çarxlarına cəlb etmək

B) Uşaqların hüquqları haqqında məlumatlandırmaq
C) Yeni filmlərin nümayişi

7. **UNICEF bu günlə bağlı hansı rolu oynayır?**
A) Günü təşkil edir və dəstəkləyir
B) Radio istehsalı ilə məşğuldur
C) Yalnız festival keçirir

8. **Bu günün devizinə uyğun gələn ən doğru fikir hansıdır?**
A) "Uşaqların səsi eşidilsin"
B) "Daha çox musiqi"
C) "Yalnız böyüklərin media günü"

9. **Televiziya və radioda bu gün üçün uşaqların hazırladığı proqramlar adətən hansı mövzulara həsr olunur?**
A) Uşaq hüquqları və problemləri
B) Yalnız əyləncə
C) Turizm və səyahət

10. **Uşaqların Beynəlxalq Radio və Televiziya Günü nə üçün uşaqların cəmiyyətə təsir imkanlarını artırır?**
A) Çünki onlara media platformalarında söz haqqı verilir
B) Çünki məktəblərdə tətil elan olunur
C) Çünki yalnız musiqi proqramları artır

11. **Bu günün keçirilməsi uşaqların media savadlılığına necə töhfə verir?**
A) Media proseslərini yaxından tanımalarına imkan yaradır
B) TV izləmə vaxtını artırır
C) Reklamları azaltmağa kömək edir

12. **Uşaqların Beynəlxalq Radio və Televiziya günündə televiziya kanallarının ən çox istifadə etdiyi xüsusi format hansıdır?**
A) Uşaqlar tərəfindən aparılan xəbərlər
B) Sənədli filmlər
C) Serialların təkrarı

13. **Bu günün uşaqların öz yaşadıqları problemləri ictimaiyyətə çatdırması üçün niyə əhəmiyyətlidir?**
A) Onlara mikrofon və kamera arxasında söz demək imkanı verildiyi üçün
B) Onlar yalnız tamaşaçı olduqları üçün
C) Media həmin gün fəaliyyət göstərmədiyi üçün

14. **Bu günün keçirilməsi uşaqların özünüifadə qabiliyyətinə necə təsir edir?**
A) Açıq danışmağa təşviq edir
B) Onları susqun edir
C) Yalnız texniki bacarıqları artırır

15. **Bu gündə yayımlanan proqramlar adətən nəyi nümayiş etdirməyə çalışır?**
A) Uşaqların düşüncələrini, təkliflərini və narahatlıqlarını
B) Yalnız böyüklərin fikirlərini
C) Modanı və geyim markalarını

**11 dekabr Azərbaycanda**

Hər il 11 Dekabr bütün dünyada qeyd edilən Uşaqların Beynəlxalq Televiziya və Radio Günü ənənəsinin əsası ötən əsrin sonlarından 1994-cü ilin aprelində BMT Uşaq Fondunun (YUNİSEF) təşəbbüsü ilə Kann şəhərində təsis edilmişdir. O zamandan etibarən hər il bu tarixdə dünyanın bütün aparıcı teleradio şirkətləri efiri uşaqların və uşaq verilişlərinin ixtiyarına verir. Həmin gün televiziya və radioda uşaqlara həsr olunmuş verilişlər nümayiş etdirilir. Həmçinin, uşaqlar televiziya və radio verilişlərinə dəvət olunaraq vacib hesab etdikləri mövzular haqqında danışırlar, maarifləndirici və əyləndirici proqramlar vasitəsilə öz istedad və düşüncələrini nümayiş etdirirlər. Azərbaycanda uşaqlara qayğı hər bir zaman hiss edilmişdir.

Dövrümüzdə minlərlə izləyicilərlə görüşmək imkanı verən müasir texnoloji efir yeniliklərindən olan sosial media vasitəsilə şagirdlər öz fikir və düşüncələrini izləyicilərlə bölüşür, efir texnologiyası ilə tanış olurlar.

Uşaqların Beynəlxalq Televiziya və Radio Günü münasibətilə kitabxanada yuxarı sinif şagirdləri ilə Radio məkanlarının birinə ekskursiya edə bilərik. Görüş zamanı əməkdaş şagidləri salamlayaraq uşaqları əlamətdar gün münasibətilə təbrik edir, ziyarətçilərə radionun yaranma tarixi və işi barədə məlumat verir. Məktəbliləri ilk olaraq efir otagına dəvət edən radio işçisi canlı yayım prosesi haqqında onlara danışır. Uşaqlar əyani olaraq canlı efir prosesinin necə təşkil olunduğunu görürlər. Daha sonra digər guşələri ziyarət edən məktəblilərə ümumi olaraq radionun gündəlik iş fəaliyyətinin necə təşkil olunduğu, efirin paylaşılması, yayım və radio ilə bağlı bir çox məsələlər haqqında ətraflı məlumat verilir. Ekuskursya zamanı uşaqlar ekran, efir haqqında yeni biliklər əldə edirlər. Ekskursiya bitdikdən sonra uşaqlar üçün ekskursiya zamanı öyrəndikləri biliklərə dair sual-cavab keçirə bilərik. Uşaqlar radio əməkdaşlarına müsahibə verərək radioda keçirdikləri maraqlı vaxt haqqında təəssüratlarını bölüşürlər.

1.Radioda işləmək istərdinizmi?

2. Gələcəyinizi hansı işdə görmək istərdiniz?

3. Hansı sahədə təhsil almaq istərdiniz?

4. Ölkəmizdə təhsil almağa üstünlük verirsiniz ya başqa ölkədə?

Nə üçün?

4. Televiziya işçisi olmaq istərdinizmi?

5. Nəyə görə bu peşəni seçərdiniz?

6. Böyük nailiyyətlər qazanmaq üçün daha çox necə çalışmaq lazımdır?

7. Gələcəyinizin daha işıqlı olması üçün müəllimlərin rolu böyükdür yoxsa valideynlərin?

8. Qazanacağınız uğurların mənbəyini daha çox nədə görürsünüz?

9. Əldə etdiyiniz maraqlı informasiyalada daha çox nəyin rolu böyükdür?

Televiziya; Radio; Kitab; Mətbuat

Hazırda Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində və "Mədəniyyət" kanalında uşaqlara həsr olunan "Mən də uşaq olmuşam", "Çoxbilmişlərdənsinizmi?", "Biləyən", "Bəbək", "Ana dili", "Dərsdən sonra" və s. verilişlər efirə gedir. İnsanın uşaqlıq dövrü onun ən xoşbəxt dövrüdür. Uşaqlar bunu bəlkə də bilmirlər. Ancaq uşaqlıq dövrünü yaşamış, həyatın ağır və çətin illərini, eləcə də çox xoşbəxt günlərini yaşamış insanlar bunu yaxşı bilirlər. Azərbaycanda uşaqlara qayğı günü-gündən artır və artacaq. Öz övladına qayğı göstərmək, təhsil vermək, övladını yüksək əxlaqi normalar səviyyəsində tərbiyələndirmək hər bir valideynin borcudur. Fərəhlə demək olar ki, uşaq və gənclərə göstərilən diqqətin, qayğının daha da artırılmasında ölkə Prezidenti İlham Əliyevin xidmətləri böyükdür. Yeni məktəblərin tikilməsi, təmir olunması, idman komplekslərinin yaradılması buna əyani sübutdur. Heydər Əliyev Fondunun prezidenti,UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu yolda gördüyü işlər isə xüsusi qeyd edilməlidir. Azərbaycanın ən ucqar dağ kəndində də uşaqların təhsili üçün hər cür şəraiti olan təhsil ocaqlarının tikilməsi bu qayğının təzahürü kimi təqdir edilməlidir. Uşaqlar, gənclər müstəqil Azərbaycanın gələcəyidir.

**Ədəbi-bədii gecə:**

Ötən əsrin sonlarından BMT tərəfindən qeyd edilən dekabrın 11-i "Uşaqların Beynəlxalq Televiziya və Radio günü" göstərir ki, ölkəmizdə də uşaqlara diqqət və qayğı gündən-günə artmaqdadır. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il mayın 19-da imzalanmış "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qnunununn 3-cü maddəsinə əsasən Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi tərbiyə edilməsinə yönəldilir. Bundan əlavə uşaqlara göstərilən qayğının bariz nümunəsi 22 iyun 1999-cu ildə qüvvəyə minmiş "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur.

## Gəlin bir gün uşaq olaq

Kitabxanada 3 Mart Uşaqların Beynəlxalq Televiziya və Radio Günü münasibəti ilə və *"Televiziya uşaqların gözü ilə" "Uşaqlar dünyanın sevincidir"*, "*Gəlin bir gün uşaq olaq "* başlıqlı tədbirlər keçirə bilərik. uşaqların Kitabxanaya bu gün münasibətilə televiziya işçiləri, rejissorlar,incəsənət xadimləri, teatrşünaslar dəvət

olunur. Çıxışlar bitdikdən sonra uşaqlara həsr edilən tədbiri videoçarxla davam etdiririk. Tədbiri keçirməyin əsas məqsədi fidanlara qayğı göstərmək, onların təhsili, tərbiyəsi üçün şərait yaratmaq, həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət-ənənələrini aşılamaqdır. Şagirdlərin ifasında müxtəlif şeir və rəqslərin ifası oxucular tərəfindən böyük maraqla izlənilir. Ümummilli lider Heydər Əliyev uşaqlar üçün keçirilən tədbirlərdən birində çıxış edərkən tədbiri aparıcı ilə birgə idarə edən uşaqlar haqqında belə deyirdi: "Mən çox sevindim ki, verilişi idarə edən Azərbaycanda tanınmış televiziya aparıcısı Roza xanımla bərabər iki uşaq - bir qız, bir oğlan bu verilişi gözəl aparmağa başladılar... Görün, bizim xalqımızda nə qədər istedadlılar var. Bizim uşaqlar öz istedadlarını kiçik yaşlarından büruzə verirlər, nümayiş etdirirlər".

Fərəhlə demək olar ki, uşaq və gənclərə göstərilən diqqətin, qayğının daha da artırılmasında ölkə Prezidenti İlham Əliyevin xidməti çoxdur. Yeni məktəblərin tikilməsi, təmir olunması, idman komplekslərinin yaradılması buna əyani sübutdur. Azərbqycanın 1-ci vitse-prezidenti Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu yolda gördüyü işlər xüsusi qeyd edilməlidir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində həyata keçirilən genişmiqyaslı inşaat və yenidənqurma işləri bölgələrimizdə uşaqların təhsili üçün gözəl imkan yaratdı. Azərbaycanın ən ucqar dağ kəndində də belə uşaqların təhsili üçün hər cür şəraiti olan təhsil ocaqlarının tikilməsi bu qayğının təzahürü kimi təqdir edilməlidir.

"11 dekabr Uşaqların Beynəlxalq Televiziya və radio verilişləri gününə həsr olunmuş tədbir musiqi ilə davam edir. Aparıcılar səhnəyə daxil olur.

Sonra televiziyanın müxtəlif şöbələrində çalışan texniki və yaradıcı heyətin iş bölgüsünü ifadə edən çarx nümayiş olunur. Bədii hissədən sonra dəvət edilmiş qonaqlar uşaqlara televiziya sənətinin incəliklərindən söz açıb, televiziyanın ölkənin və xalqın inkişafındakı mühüm əhəmiyyəti barədə danışırlar.

**I aparıcı** - Salam dostlar .

**II aparıcı** -11 dekabr Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Gününə həsr həsr olunmuş tədbirimizdə hər birinizi xoş gördük.

**I-ci aparıcı** Ey dünyanın səadəti, şirin səsli balalar,
Ömrümüzün, günümüzün təntənəsi balalar,
Mən öpürəm ana kimi bu gün sizi balalar.
Ey göyərçin, al nəğməmi dimdiyinə çiçək tək
Uçub söylə uşaqlara – "Bayramınız mübarək!"

**II aparıcı** Qapınızı Qızıl Günəş hər səhər özü açsın.
Şöhrətiniz, hünəriniz dərə aşsın, dağ aşsın.
Gülüşünüz şən quşların nəğməsinə qarışsın.

Ey göyərçin, al nəğməmi dimdiyinə çiçəktək
Uçub söylə uşaqlara – “Bayramınız mübarək!”

**I aparıcı:** 11dekabr bütün dünyada Uşaqların Beynəlxalq Televiziya və Radio Günü uşaqların ən sevdiyi gün, eyni zamanda böyüklərə də uşaq olduqlarını xatırladan, daim onların qayğıya ehtiyacları olduğunu və uşaqlar üçün məsulliyət daşıdıqlarını xatırladan bir gündür.

**II aparıcı:** Hər il dekabr ayının ikinci bazar günü dünyanın bütün aparıcı televiziya və radio kampaniyaları öz efirlərini uşaqlara və uşaq proqramlarına həsr edir.1994-cü il in aprel ayında BMT- nin uşaq fondunun (UNİCEF) təşəbbüsü ilə Beynəlxalq uşaq televiziya və yayımı günü təsis edilib.

**I aparıcı:** Həmin vaxtdan etibarən 100-dən çox ölkənin minlərlə mərkəzi, şəhər və regional teleziya kanalları və radiostansiyaları öz efir vaxtlarını uşaqlar üçün televiziya və radio proqramlarına, bədii və cizgi filmlərinin nümayişinə həsr edir.

**II aparıcı:**Həmin gün uşaq, yeniyetmə və gənclər nəinki dinləyici və tamaşaçılara, həm də televiziya proqramlarının qəhrəmanlarına çevrilir. Bütün gənc iştirakçılara öz arzuları və istəkləri haqda danışmaq,dünyanın istənilən güşəsindəki yaşıdları ilə ünsiyyət qurmaq imkanı verilir.

**I aparıcı:** Beynəlxalq Uşaq Televiziya və Radio günü kiçiklərlə yanaşı böyüklərində bayramıdır demək olar. Çünki bu gün yaşlılarında nə vaxtsa uşaq olduqlarını xatırladan bir gündür. Bu gün böyüklərə öz suallarını verən uşaqlar sabah hərəsi bir sahədə çalışacaqlar. Həmin günün prinsiplərid ə odur ki, bu gün kamera arxasında uşaqlar oturur, onlar süjet çəkir, aparıcılıq edirlər. Onlar suallarını böyüklərə ünvanlayırlar.

**II aparıcı:**Digər ölkələrdə yığcam şəkildə yarım saatlıq efirlə tamamlanan verlişlişlər ölkəmizdə altı saatdan çox efirlə bayram sevincini yaşadır uşaqlara. Ümummilli lider Heydər Əliyevin 1997-ci il dekabr şənliyində iştirak etməsi onun tərəfindən qoyulan dəyərli ənənələrdəndir. Hazırda bu ənənələri Cənab Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva davam etdirir.Beynəlxalq Televizya günündə uşaqların görüşünə gələn Ümummilli liderHeydər Əliyevin balacalarla söhbəti onun uşaqlara qarşı nə qədər sevgi ilə yanaşdığını göstərir.

**I aparıcı:**Heydər baba uşaqların görüşünə gəlmişdi. Balacalar onu intizarla gözləyirdilər. Əllərində təzə-tər çiçəklər. Budur Heydər baba otağa daxil olur:
Balaca bir qız yanındakına deyir:

- Necədə gözəl insandır. O mənim babamdır. Belə bir insanla görüş gərək genişlikdə olardı. Bura çox balacadır.
- Sanki Heydər baba qızcığazın sözlərini eşidir.
- Uşaqlar bu otaq balacadır. Bayırda isə uşaq çoxdur. Gəlin çölə çıxaq.
- Balaca bir qızcığaz əlindəki gülləri rəhbərə uzadır.

- Rəhbər: Özün bir çiçək dəstəsisən.

**II aparıcı:** Azərbaycanımızda hər bir uşaq gözəldir. Onların hər birinin öz istedı var.Onların hər biri bu Vətənin layiqli övladlarıdır. Lakin 30 ilə yaxın Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğalı zamanı uşaqlarımızın bir qismi öz yurd-yuvalarından məcburi köçkün düşmüşdülər. Bu işğal zamanı bir milyondan çox vətəndaşlarımız yerindən-yurdundan didərgin düşmüşdür ki, onlarında əksəriyyəti öz dövründə gənclər və uşaqlar idi. Bu dövrünün uşaqları üçün böyük bir faciə idi.Lakin qisas yerdə qalmadı 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Azərbaycan ordusunun rəşadəti ilə hərb tarixində iz qoyan döyüş əməliyyatları nəticəsində torpaqlarımız işğaldan azad edildi.

**I aparıcı:**İkinci Qarabağ müharibəsi necədə olmasa yenədə uşaqlardan yan keçmədi. Düşmənlər yenədə günahsız əhalini hədəfə aldı. Bu zamanı da atdıqları raketlərlə nə qədər uşağın həyatına son qoydular. Naftalanın Qaşaltı kəndində 12 yaşlı Şəhriyar Qurbanov və onun 14 yaşlı bacısı Fidan Qurbanova ermənilərin gülləbaran etdikləri evlərində can verdilər, Ağcabədi rayonunun Taynaq kəndinin atəşə tutulması nəticəsində 14 yaşlı Fərid İsgəndərov həlak oldu, Gəncəyə endirilən raket zərbələri 6 uşağın ölümünə səbəb oldular. 11 yaşlı Orxan Xəlilli, 6 yaşlı Məryəm Xəlilli, bir yaşlı Mədinə Şahnəzərli, 10 aylıq Narin Xaliqova, 15 yaşlı Nigar Əsgərova, vətəni Azərbaycana bibisi ilə qalmaq üçün gələn 13 yaşlı Rusiya vətəndaşı Artur Mayakov... Dünya uşaqlara qarşı edilən ədalətsizliyə yenədə şahid oldu.Müharibələrdə öldürülən günahsız uşaqların ahı yerdə qalmadı. Düşmənlərimiz yenə xar oldular. Biz bu gün yenədə öz torpaqlarımıza qayıtdıq. Bu gün tariximizin səhifələrini gələcəyimiz olan uşaqlara daha yaxşı təbliğ etməliyik. Ekran və efir vasitəsilə bu sırada təbliğatımız daha da zəngin olmalıdır. Axı uşaqlarımız televiziya qarşısında vaxt keçirməyə çox üstünlük verirlər.

**Aparıcı:** (*Üzünü uşaqlara tutur)*

Uşaqlar! daha çox yerli istehsalımız olan cizgi filmlərinə baxırsınız yoxsa xarici?

Daha çox hansi mövzuda olan cizgi filmləri sizi maraqlandırır?

Üstünlüyü dava mövzusunda olan, yoxsa mərhəmət, xeyirxahlıq mövzusu yer alan cizgi filmlərinə verirsiniz?

Siz bilirsiniz ölkəmizdə uşaqlar üçün televiziyada yaradılmışdır. Azərbaycanın ilk uşaq televiziya kanalı olan “ARB Günəş” 1 aprel 2015-ci il tarixindən etibarən peyk yayımına başlayıb. Bir neçə əməkdaşla işə başlayan telekanal qısa zaman ərzində kollektivi ilə yanaşı, efir proqramını da genişləndirə bilib. Hazırda “ARB Günəş”in efir proqramına müxtəlif cizgi filmləri ilə yanaşı, uşaq verilişlərinin nümayişi də daxildir. Gələcəkdə, efir televiziyası ilə bərabər, internet uşaq televiziyasının yaradılması nəzərdə tutulmuşdur.

**Ədəbiyyat siyahısı:**

**Dövri mətbuatda**

Abbas, G. Danışır, Bakı! 97 il əvvəl... : Azərbaycanda radio müntəzəm yayıma başladı // Yeni Azərbaycan. - 2023. - 5 noyabr. - № 204. - S. 5.

Bayramova, Y. Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır // Yeni Azərbaycan. - 2024. - 21 noyabr. - № 213. - S. 8.

Bayramova, Z. Azərbaycan radiosu - bir əsrə yaxın tarixi yol // Səs. - 2024. - 7 noyabr. - № 206. - S. 9.

Bayramova, Z. Azərbaycan radiosu - bir əsrə yaxın tarixi yol // Səs. - 2024. - 7 noyabr. - № 206. - S. 9.

Cabbarlı, A. Efir və ekranda bir gün uşaqlardır : 11 dekabr Beynəlxalq Uşaq Televiziya və Radio Günüdür // Azərbaycan. - 2009. - 11 dekabr. - № 275. - S. 5.

Əliyeva, M. İnformasiya məkanının flaqmanı // Respublika. - 2022. - 13 fevral. - № 33. - S. 4.

Əliyeva, M. Onlar hər bir evin gülü, çiçəyi, dünyanın sevincidir : BMT tərəfindən hər il dekabrın 11-i Uşaqların Beynəlxalq Televiziya və Radio Günü kimi qeyd olunur // Respublika. - 2022. - 11 dekabr. - № 271. - S. 5.

Gündəlik "qulaq dostumuz" : Dünya Radio Günüdür // Yeni Azərbaycan. - 2024. - 13 fevral. - № 27. - S. 8.

Məhyəddinqızı, Ş. Azərbaycan Milli Radiosunda uşaq proqramları : 11 dekabr - Beynəlxalq Uşaq Televiziya və Radio Günüdür // 525-ci qəzet. - 2019. - 11 dekabr. - № 162. - S. 17.

M-zadə, T. Mənim televiziyam // 525-ci qəzet. - 2023. - 11 fevral. - № 26. - S. 13.

Niftəliyev, B. Televizayın cəmiyyətdə rolu və peşə etikası // Mədəniyyət.az. - 2017. - № 313. - S. 59-61.

Vəli, A. Uşaqlar hansı cizgi filmlərini izləməlidir? // Səs. - 2025. - 16 may. - № 84. - S. 10-11.

Xəlilzadə, F. Danışır və göstərir Bakı : Teleradio auditoriyası bütün ölkəmizin olan ən böyük tribunadır // Xalq qəzeti. - 2023. - 5 noyabr. - № 243. - S. 10.

Xəlilzadə, F. Yaşa uyğun, ada layiq : 11 dekabr - Uşaqların Beynəlxalq Televiziya və Radio Günüdür // Azərbaycan. - 2012. - 11 dekabr. - № 276. - S. 6.